# Xoşbəxt taleli sənətkar



14 dekabr 2024-cü il tarixində AYB Lənkəran Bölməsinin təşkilatçılığı ilə Lənkəran Dövlət Dram Teatrında böyük söz ustadı, ictimai xadim, Xalq şairi Nəbi Xəzrinin 100 illik yubileyi ilə bağlı "Xoşbəxt taleli sənətkar" adlı anım tədbiri keçirildi.

Tədbir AYB Lənkəran Bölməsinin sədri, yazıçı-dramaturq Qafar Cəfərlinin moderatorluğu ilə keçdi.

Tədbiri giriş sözü ilə açan Qafar Cəfərli Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Xalq şairi Nəbi Xəzrinin 100 illik yubileyinin keçirilməsi haqqında olan sərəncamı barədə iştirakçılara geniş məlumat verdi.

Qafar Cəfərli qeyd etdi ki, Nəbi Xəzri çoxşaxəli yaradıcılığı ilə Azərbaycan ədəbiyyatının inkişafında özünəməxsus rol oynamış görkəmli söz ustasıdır. Onun ədəbiyyatımıza gətirdiyi yeni poetik obrazlar, lirik-epik lövhələr, dərin lirizmi, ifadə tərzi və həyata fəlsəfi münasibəti ilə səciyyələnən, təbiət gözəlliklərinə vurğunluq və torpağa bağlılıq hisslərini aşılayan zəngin poeziyası həmişə oxucu sevgisinə səbəb olmuşdur. Nəbi Xəzrinin dram əsərləri ölkənin aparıcı teatr səhnələrində, o cümlədən, Lənkəran Teatrında uğurla tamaşaya qoyulmuşdur.

Nəbi Xəzrinin həyat və yaradıcılığı barədə Lənkəran Dövlət Universitetinin humanitar fakültəsi, Azərbaycan dili və ədəbiyyatı kafedrasının müəllimi Məhəmməd Azad məruzə etdi.O, görkəmli şairin həyatı və çoxşaxəli yaradıcılığından danışaraq, onun lirik "Mən"ini Şərq və Qərbin fəlsəfi dünyagörüşü baxımından təhlil etdi.

Sonra söz digər iştirakçılara verildi. Azərbaycan Respublikasının Xalq artisti Qabil Quliyev və Əməkdar artist Aynur Əhmədova Nəbi Xəzrinin dramaturgiyasından və dram əsərlərinin səhnə həyatından, yazıçı Hafiz Mirzə şairlə bağlı xatirələrindən danışdı. Şair Ağamir Cavad Nəbi Xəzrinin Azərbaycan poeziyasına gətirdiyi yeni lirik ovqatdan, nəğməyə çevrilmiş şeirlərindən söz açdı.

Teatrın aktyorlarından - Aynur Əhmədova və Allahverən Babayev, Lənkəran şəhər 5 saylı tam orta məktəbin şagirdi, gənc qiraətçi Nazxanım Rzayeva şairin şeirlərini səsləndirdilər.

Sonda Qafar Cəfərli böyük söz adamı, görkəmli ictimai xadim, Xalq şairi Nəbi Xəzrinin 100 illik yubileyi ilə bağlı keçirilən anım tədbirində iştirak etməklə, mənəvi borclarını vermiş olan tədbir iştirakçılarına, xüsusən, tədbirin keçirilməsinə dəstək olan Lənkəran Dövlət Dram Teatrının rəhbərliyinə və yaradıcı heyətinə təşəkkürünü bildirdi. AYB Lənkəran Bölməsi ilə Lənkəran Dövlət Dram Teatrının bundan sonra da birgə layihələr həyata keçirəcəyinə inamını ifadə edərək tədbiri yekunlaşdırdı.

Tədbir xatirə şəkilləri çəkilməklə başa çatdı.

**AYB Lənkəran bölməsi**

